16 noyabr Beynəlxalq Tolerantlıq Günüdür

# Azərbaycanda bütün dinlərə və fərqli mədəniyyətlərə eyni qayğı ilə yanaşılır

Ölkəmizdə hər il noyabrın 16-da keçirilən Beynəlxalq Tolerantlıq Günü 1995-ci ildə UNESCO-nun 50 illiyi münasibətilə təsis edilib. Həmin gün UNESCO-ya üzv dövlətlər tolerantlıq prinsipləri haqqında Bəyannamə qəbul edib. Məqsəd qurumun da nizamnaməsində qeyd olunduğu kimi, dünyada hamını bir-birinə dözümlülük nümayiş etdirərək mehriban qonşular kimi yaşamağa çağırışdır.

Sənədə görə, dözümlülük dünyada mədəniyyətlərin, özünü ifadənin və insan şəxsiyyətinin təzahürünün müxtəlifliyinin başa düşülməsi, qəbul edilməsi və hörmət göstərilməsidir. Dövlət səviyyəsində dözümlülük qanunçuluğa, məhkəmə-prosessual və inzibati normalara əməl edilməsi deməkdir. Tolerantlıq hər bir insana heç bir diskriminasiya olmadan iqtisadi və sosial inkişaf imkanı yaradılmasını tələb edir.

Bütün bunlar ölkəmizdə son illər öz mövcudluğunu yüksək səviyyədə tapmış həyati reallıqlardır. Ulu öndər Heydər Əliyev tərəfindən ölkəmizdə tolerantlığın qorunub saxlanılması istiqamətində həyata keçirilən tədbirlər Azərbaycanı müxtəlif milli və mədəni dəyərlərin qovuşma müstəvisinə çevirib. Ümummilli lider multikulturalizm siyasətini ölkənin demokratik inkişafının tərkib hissəsi hesab edirdi. Ulu öndər Azərbaycan cəmiyyəti daxilində milli, dini, məzhəblərarası məsələlərə, dövlət-din münasibətlərinin tənzimlənməsinə hər zaman xüsusi diqqət yetirirdi. "Yüksək tolerantlıq yüksək mədəniyyətin təzahürüdür" kəlamının müəllifi olan ulu öndər tolerantlıq, multikulturalizm kimi ümumbəşəri önəm kəsb edən dəyərləri məhz Azərbaycanın nümunəsində dünya miqyasında analoqu olmayan bir fenomenə çevirməyə müvəffəq olmuşdur. Heydər Əliyevin təşəbbüsü ilə ölkəmizdə multikultural ənənələrin dövlət tərəfindən qorunması hüquqi sənədlərdə, o cümlədən Azərbaycan Konstitusiyasında da əks olunmuşdur. Xalqımızın milli və mənəvi dəyərlərə sadiqliyi, demokratik və dünyəvi dövlət olan Azərbaycanda din-dövlət münasibətlərinin nümunəvi modeli, mədəniyyətlərarası dialoq və əməkdaşlığın yüksək təzahürü olan multikultural həyat tərzi qloballaşan dünyaya təqdim edilmişdir. Bununla da ulu öndər bəşəriyyəti milli və dini dözümlüyə - tolerantlığa və multikulturalizmə dəvət edirdi: "Bizim hər birimizin borcu bütün dinlərə, bütün əqidələrə, milliyyətindən asılı olmayaraq, bütün adamlara hörmət etməkdən ibarətdir. Biz hamımız bu Yer kürəsinin insanlarıyıq və hansı dinə, millətə mənsubluğumuzdan asılı olmayaraq, bir-birimizə hörmət etməli və bir-birimizi qiymətləndirməliyik. İnsan qurmalıdır, yaratmalıdır. İnsanların, dövlətin, cəmiyyətin fiziki, ruhi cəhətdən müəyyən məhrumiyyətlərə uğramış adamlara qayğısı həmişə yüksək səviyyədə olmalıdır. İnsanların mənəvi sərvətlərinin hamısından dinin fərqi ondadır ki, o, dini mənsubiyyətindən asılı olmayaraq həmişə insanları dostluğa, həmrəyliyə və birliyə dəvət etmişdir. Azərbaycan torpağı əsrlər boyu müxtəlif etiqadlara tapınan insanlar üçün doğma vətən olmuşdur". Məhz buna görə Azərbaycan dünyanın nadir ölkələrindəndir ki, burada bütün millətlər, xalqlar, dinlərin nümayəndələri bir ailə kimi mehriban yaşayırlar. Ölkəmizdə dini və milli dözümlülük, tolerantlıq yüksək səviyyədədir.

Bu müdrik addım indi də ulu öndərin siyasi kursunun davamçısı ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla atılır. Prezident İlham Əliyevin sərəncamı ilə 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan edilməsi ölkəmizdəki bütün xalqların qədimdən multikultural ənənələrin hakim olduğu mühitdə mehriban yaşadığını bir daha ortaya qoyur. Prezident İlham Əliyevin din xadimləri ilə keçirdiyi görüşlər, Ramazan bayramında ənənəvi olaraq onlarla iftar süfrələrində bir yerdə olması və bu mərasimlərə Azərbaycanda mövcud digər dini icmaların nümayəndələrinin də qatılması ölkədə tolerant düşüncənin artıq tam bərqərar olduğunu göstərir. Prezident dindarlarla görüşlərində islam dininə elmi yanaşmanı, islam elminin və fəlsəfəsinin öyrənilməsini mühüm şərt kimi səciyyələndirir.

Sivil ölkələrin xalqlarına yaxşı bəllidir ki, indi Azərbaycan bütün dünyada həm də tolerantlıq örnəyi kimi tanınır. Prezident İlham Əliyev 6 noyabr 2009-cu ildə Bakıda keçirilən "Dinlərarası dialoq: qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru" beynəlxalq konfransda da bir daha bəyan etmişdir ki, dünyada sülhün, əmin-amanlığın təmin edilməsi, asayişin qorunması üçün mütləq dinlərarası münasibət, dinlərarası dialoq gücləndirilməlidir. Dövlətin gücünü əhalinin çoxmillətli olmasında, müxtəlif dinlərin, mədəniyyətlərin və sivilizasiyaların birgəyaşayışında görən Azərbaycan Prezidenti bütün dünyaya göstərir ki, tolerantlıq xalqımızın ruhundadır.

Ölkəmizdəki tolerantlıq mühitinin hazırkı səviyyəyə gəlib çatması Prezident İlham Əliyevin bu istiqamətdə apardığı dövlət siyasətinin dinindən, dilindən və milli mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaşa bərabər münasibətinin nəticəsidir. Təsadüfi deyil ki, Azərbaycanda 2 mindən çox məscid, 7 yəhudi sinaqoqu, 13 xristian kilsəsi fəaliyyət göstərir. Bu gün ölkəmizdə 760-dək dini icma qeydiyyatdan keçib. Onların sərbəst şəkildə fəaliyyət göstərməsi dinlərarası harmoniyanın bariz nümunəsidir. Cənubi Baptist Kilsəsinin Xristian Bel-El Mərkəzinin pastoru Xuan Karlos Mendez, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Moldovadakı filialının rəhbəri Aurieliya Qriqoriu, Humanitar və Texnologiyalar üzrə Lusofon Universitetinin beynəlxalq əlaqələr şöbəsinin müdiri Teresa Damasio, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Yekaterinburq filialının rəhbəri Aleksandr Nesterov mətbuata açıqlamalarında bildiriblər ki, tolerantlığın Azərbaycanda çox möhkəm təməl sütunları, zəngin ənənələri, dərin tarixi və mədəni kökləri var. Azərbaycanda məskunlaşmış azsaylı xalqların və etnik qrupların öz varlığını qoruyub saxlamaq üçün əlverişli şərait mövcuddur.

Xalqların və millətlərin mehriban qonşuluq şəraitində yaşamasında xidmətləri olan ölkəmizdə fəaliyyət göstərən dini icmaların rəhbərlərinə, qonşu ölkələr və qonşu xalqlar arasında dostluq və mədəni əlaqələrin inkişafında xidmətlərinə görə hər il Tolerantlıq Günü münasibətilə neçə-neçə insanın dövlət başçısı tərəfindən fəxri adlarla, orden və medallarla, fəxri diplomlarla mükafatlandırılması ənənə halını alıb. Bu tarixi gün münasibəti ilə ölkə ərazisində, o cümlədən Heydər Əliyev Mərkəzində, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunda, AMEA-da, Təhsil Nazirliyində, rayon və şəhər icra hakimiyyətlərində, gənclər mərkəzlərində, YAP rayon təşkilatları və mədəniyyət evlərində, bir sıra elm və təhsil müəssisələrində, Rus Pravoslav kilsəsində, digər idarə və təşkilatlarda silsilə tədbirlər keçirilir, "Azərbaycan tolerantlıq nümunəsidir" mövzusunda mühazirələr davam etdirilir. Tədbirlərdə tolerantlıq anlayışı, tolerant mühiti formalaşdıran amillər, tarixən Azərbaycan ərazisində mövcud olan birgəyaşayış qaydaları barədə ətraflı məlumatlar verilir. Azərbaycanda hər zaman bütün dinlərə və fərqli mədəniyyətlərin daşıyıcılarına eyni qayğı ilə yanaşılır. Buna ölkəmizdə milli, irqi və dini zəmində münaqişələrin, qarşıdurmaların olmaması da əyani sübutdur.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***